Rasim HÜSEYNOV
AMEA Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutu Beynəlxalq Əlaqələr şöbəsi, Fil.ü.f.d.
E-mail: r.huseynov.80@mail.ru

AZƏRBAYCAN VƏ ANADOLUDA TÜRKDİLLİ ƏDƏBİYYATIN DOĞUŞU VƏ İNKİŞAFI

Açar sözlər: Səlcuqlular, Hülakilər, türk dili, təsəvvüf ədəbiyyatı, alban türkcəsi.

XÜLASƏ

Bu gün əlimizdə Səlcuqlular dövründə, daha dəqiq desək, XI – XIII əsrlərdə türkcə yazıldığı bilinən bir necə ədəbi əsər bulunmaqdadır. Bunlar Mövlanə Cəlaləddin Ruminin və Sultan Vələdin oğuz türkcəsində qələmə aldıqları şerlər, Fəqihin "Çarxnamə"si, Şəyyad Həmzənin "Yusif və Züleyxa"sı, Əlinin "Qisseyi – Yusif"idir. Bunlar ümumoğuz – Səlcuqlu ədəbiyyatının nümunələri hesab edilirlər. Həmin əsərlərin dili onlardan əvvəl Azərbaycanda ərsəyə gəlmiş "Kitabi – Dədə Qorqudun" və daha sonrakı dövrün məhsulu olan "Dastani Əhməd Hərami"nin, eləcə də İzəddin Həsənoğlunun dilindən, ortadakı cüzi şivə fərqləri nəzərə alınmazsa, demək olar ki, heç nə ilə fərqlənmir. Məsələyə bugünkü oğuz şivələri (Azərbaycan, Anadolu, qaqauz və türkmən) baxımından yanaşsaq, həmin ədəbi abidələrin dilini Azərbaycan ədəbiyyatının nümunəsi hesab etmək lazım olacaq. Hərçənd ki, Mövlanə Cəlaləddin Rumlu əslən Orta Asiyadan idi, oğlu Sultan Vələd isə Anadoluda dünyaya gəlmişdi. Bu sıraya Qazi Bürhanəddinin "Divan"ı "Dastani – Əhməd hərami", Yusif Məddahın "Vərqa və Gülşa"sı, Suli Fəqihin "Yusif və Züleyxa"sı, Qazi Mustafa Zərrinin "Yusif və Züleyxa"sı, Şəyyad Həmzənin "Yusif və Züleyxa"sı kimi Şərqi Anadoluda qələmə alınmış əsərləri də daxil etmək olar. Onların böyük əksəriyyəti Hülakülər, başqa sözlə, Elxanilər dövründə ərsəyə gəlmişdir. XII-XIII əsrlərdə oğuz türkcəsində yazılan əsərlərə yanaşı, alban ədəbiyyatı da inkişafda olub. Söhbət alban (qıpçaq – qarqar) türkcəsində yaradıqları əsərlərdən, məsələn, Xll əsrin böyük alban ilahiyyatçı, tarixçi və müəfəkkiri Mxitar Qoşun "Törə bitiqi" və digər əsərlərindən gedir. Bundan başqa dövrümüzədək eyni dildə qələmə alınmış bir çox alban müəllifin əsəri də yetişib ki, onlardan alban katalikosu Nersesin "Alğış Tenqrigə, Nersess gatoğiqosnunq aytkanı, xaysı ki tiyişlidir barça krisdanlarğa övrənməgə", Vanağanın "İnam bilə tapunurmen ari Errortutiunnu da bir Tenqrilikni ayirılmağan" başlıqlı əsərlərini və s. göstərmək olar. Sözügedən dövrlərdə alban (qarqar-qıpçaq) türkcəsi Azərbaycanda olduğu kimi, Anadoluda da işlənmiş və bu dildə bir çox əsər yaranmışdır. Dövrümüzədək Lambronlu Nerses, Qriqor Maqistratos, Katalikos IV Nerses, Naraekli Qriqor, Ərzincanlı Ohannes, Yovhanes Tılkuranlı, Arakel Bitlisli, Nerses Şnorali, Toros Muşlu, Mkırtıç Nəqqaş, Xaçatur Dərəçiçəkli, Frik, və Zəkəriyyə Vanlı və başqalarının həmin dildə qələmə aldıqları çox sayda əsər yetişmişdir. XIII-XIV əsrlərdə Qərbi Anadoluda qurulan türkmən bəyliklərinin türkcəyə göstərdikləri həssasiyət sayəsində Türk dili həmin ərazilərdə dövlət dilinə çevrilmiş, rəsmi dil halına gəlmişdi ki, bu da ayrıca bir söhbətin mövzusudur.

SUMMARY

BIRTH AND DEVELOPMENT OF TURKIC LITERATURE IN AZERBAIJAN AND ANATOLIA

Today we have some literary works known to be written in the Turkish language during the Seljuks, to tell exactly, during the 11th – 13th centuries. They are the poems written by Mevlana Jalaladdin Rumi and Sultan Veled in Oghuz Turkish, "Charkhname" by Fagih, "Yusif and Zuleykha" by Seyyad Hamza, "Gisseyi - Yusif". They are considered the examples of common-Oghuz-Seljuk literature. If the slightest differences in the dialect are not considered, the language of these works almost does not differ from the language of the epos "The Book of Dede Gorgud" and that preceded them in Azerbaijan and the literary works of later period – "Dastani Ahmed

Harami", as well as Izaddin Hasanoglu. If we approach the issue from the point of view of todays Oghuz dialects (Azerbaijani, Anatolian, Gagauz and Turkmen), then the language of these literary monuments should be considered a model of Azerbaijani literature. Though the fact that Mevlana Jalaladdin Rumi was from Central Asia, but his son Sultan Veled was born in Anatolia. The literary works such as "Divan", "Dastani-Ahmad Harami" by Gazi Burhaneddin, "Varga and Gulsha" by Yusif Maddah, "Yusif and Zuleikha" by Suli Fagih, "Yusif and Zuleikha" by Gazi Mustafa Zarri and the works of "Yusif and Zuleikha" by Shayad Hamza are also included into the works written in Eastern Anatolia. The majority of them were written in the era of the Hulaguids, in other words, during the period of the Ilkhanates. During the 12th- 13th centuries, along with works written in the Oghuz version of the Turkic languages, Albanian literature also developed. It is said about the works created in the Albanian (Kipchak – Gargar) version of the Turkic languages, such as "Tora bitigi" by Mkhitar Gosh who was the great Albanian theologian, historian and thinker of the 12th century and others. In addition, the works of many Albanian authors written in the same language have come to our time, among which we can show works such as "Alghish Tengrige, Nersess gatoghigosnung asytani, khaysi ki tiyishlidir barcha krisdanlarga ovrenmege" ("Praise to Tengri, the Albanian Catholics of Nerses, the words of Nerses Gatogigos, which are suitable for study by all Christians) by Albanian catholic Nerses, "Inam bile tapunurmen ari Errortutiunnu da bir Tengrilikni ayirilmaghan" ("Belief in Tengrianism) by Vanaghan, etc. During these periods the Albanian (Gargar-Kipchak) Turkic language was developed both in Azerbaijan and in Anatolia and many works were created in this language. A large number of works written in this language by some writers such as Lambronlu Nerses, Grigor Magistratos, Katalikos IV Nerses, Naraekli Grigor, Erzinjanli Ohannes, Yovhanes Tilkuranli, Arakel Bitlisli, Nerses Shnorali, Toros Mushlu, Mikirtich Naggash, Khachatur Derechichekli, Frik, Zekeriyya Vanli and others can be seen in our days. During the 13th – 14th due to the sensitivity to the Turkish languages shown by the Turkmen minorities in Western Anatolia, the Turkish language became the state language in those territories and became the official language, which is the subject of a separate investigation.

Key words: Seljuks, Hulaguids, the Turkish language, Sufi literature, Albanian version of the Turkish language.

РЕЗЮМЕ

РОЖДЕНИЕ И РАЗВИТИЕ ТЮРКОЯЗЫЧНОЙ ЛИТЕРАТУРЫ В АЗЕРБАЙДЖАНЕ И АНАТОЛИИ

Сегодня в наших руках имеются множество литературных произведений, которые, как известно, были написаны на турецком языке во времена сельджуков, а точнее, в XI–XII веках. Это стихи, написанные Мевланой Джалаладдином Руми и Султаном Валадом на огузском варианте тюркского языка, «Чархнаме» Факиха, «Юсиф и Зулейха» Шаяда Хамзы, «Гиссейи-Юсиф» Али. Они считаются образцами общеогузско-Сельджукской литературы. Язык этих произведений почти ничем не отличается от языка предшествовавших им в Азербайджане «Китаби – Деде Горгуд»а и более позднего периода – «Дастани Ахмед Харами», а также Изаддина Гасаноглы, если не учитывать малейших отличий в говоре. Если подойти к вопросу с точки зрения сегодняшних огузских говоров (азербайджанского, Анатолийского, гагаузского и туркменского), то язык этих литературных памятников надо будет считать образцом азербайджанской литературы. Несмотря на то, что Мевлана Джалаладдин Руми родом из Средней Азии, а его сын Султан Велед родился в Анатолии. К ним можно отнести записанные в Восточной Анатолии, такие произведения, как «Диван» Гази Бурханеддина, «Дастани-Ахмад Харами», «Варга и Гульша» Юсифа Маддаха, «Юсиф и Зулейха» Сули Факиха, «Юсиф и Зулейха» Гази Мустафы Зарри, сочинения Шаяда Хамзы «Юсиф и Зулейха». Подавляющее большинство из них возникло в эпоху Хулагуидов, другими словами, Ильханидов. В XII-XIII веках наряду с произведениями, написанными на огузском варианте тюркских языков, развивалась и албанская литература. Речь идет о произведениях созданных на албанском (кыпчакско-гаргарском) варианте тюркских языков, таких как «Тора битиги» («Судебник») великого албанского теолога, историка и мыслителя XII века Мхитара

Гоша и других. Помимо этого, до нашего времени дошли работы многих албанских авторов, написанных на том же языке, среди которых можно показать таких как «Алгыш Тенгрига, Нерсес гатогисоснунг айтканы, хайсы ки тийишлидир барча кристанларга (Хвала Тенгри, албанского католикоса Нерсеса, слова Нерсеса Гатогигоса, которые подходят для изучения всеми христианами)» и произведения Ванаги, под названием «Иннам била тапунурмен арии Эррортутиунну да бир Тенгриликни айырилмаган (вера в Тенгрианство)» и других. В указанные периоды албанский (Гаргар-кыпчакский) тюркский язык разрабатывался как в Азербайджане, так и в Анатолии, и на этом языке создано много произведений. До нашего времени дошло большое количество произведений, написанных на этом языке: Нерсесом Ламбронским, Григорием Магистратосом, Католикосом IV Нерсесом, Григорием Нараекским, Иоханнесом Эрзинджанским, Йованесем Тилкуралинским, Аракелом Битлисским, Нерсесом Шноралиским, Торосом Мушли, Мкртычем Наккашем, Хачатуром Ванским и другими авторами. В XIII-XIV веках, благодаря чуткости, проявленной туркменскими бекствами в Западной Анатолии к тюркским языкам, турецкий язык стал государственным языком на этих территориях, стал официальным языком, что является предметом отдельного разговора.

Ключевые слова: Сельджуки, Хулагуиды, турецкий язык, суфийская литература, албанский вариант тюркского языка.

Azərbaycanda qəbul olunmuş ənənəyə görə, XII əsr Azərbaycan renessansı hesab edilir. XII əsrdə Səlcuqlu türklərinin tarix səhnəsinə çıxması və ardınca da Azərbaycan-Eldəngizlər dövlətinin yaranması ilə gerçəkdən də Səlcuqlu imperatorluğuna daxil olan bütün ərazilərdə, o cümlədən bu imperiyanın mərkəzinə çevrilən Azərbaycanda güclü mədəni inkişaf müşahidə edilmiş, Nizami Gəncəvi, Xaqani, Mücirəddin Beyləqani, Məshəti Gəncəvi və s. kimi böyük ədiblər yetişmişdir. Belə hesab edilir ki, Səlcuqlular türk olsalar da daha çox fars dili və ədəbiyyatının heyranı idilər və daha çox fars kültürünün inkişafına təkan vermişlər. Elə bu üzdən də yuxarıda adı çəkilən şairlərimiz farsca yazıb yaratmış, Azərbaycan-türk şairi olsalar da, fars dili və ədəbiyyatının inkişafına Azərbaycan ədəbiyyatından heç də az xidmət etməmişlər. İmperiyanın dövlət dili də fars dili idi. Saraylarda türkcə danışılsa da, rəsmi sənədlər farsca yazılırdı (Leyla Karahan, 2016).

Əlbəttə, bütün bu deyilənlərdən heç də o nəticə çıxarılmamalıdır ki, guya Səlcuqlular və İldəngizlər dövründə türk dilində, ümumiyyətlə, heç bir əsər yaranmamışdır. Bu, əsla belə deyildir. Bu gün əlimizdə Xl – Xlll əsrlərdə yazıldığı heç bir şübhə oyatmayan bir necə ədəbi əsər bulunmaqdadır. Bunlar Mövlanə Cəlaləddin Ruminin və Sultan Vələdin oğuz türkcəsində qələmə aldıqları şeirlər, Fəqihin "Çarxnamə"si, Şəyyad Həmzənin "Yusif və Züleyxa"sı, Əlinin "Qisseyi-Yusif"idir (Azər Turan, 2018, s. 32).

Türkologiya elmində qəbul olunmuş və möhkəmlənmiş fikrə görə, onlar ümumoğuz – Səlcuqlu ədəbiyyatının nümunələridir. Bu əsərlərin dili onlardan əvvəl Azərbaycanda ərsəyə gəlmiş "Kitabi-Dədə Qorqudun" və daha sonrakı dövrün məhsulu olan "Dastani-Əhməd Hərami"nin, eləcə də İzəddin Həsənoğlunun dilindən, ortadakı cüzi şivə fərqləri nəzərə alınmazsa, demək olar ki, heç nə ilə fərqlənmir (Kamil Vəli, 1993, s. 3; Kamil Vəli,1992, s. 2).

Məsələyə bugünkü oğuz şivələri (Azərbaycan, Anadolu, qaqauz və türkmən) baxımından yanaşsaq, həmin ədəbi abidələrin dilini Azərbaycan ədəbiyyatı-

nın nümunəsi hesab etmək lazım olacaq (Paşa Kərimov, 2021). Hərçənd ki, Mövlanə Cəlaləddin Rumlu əslən Orta Asiyadan idi, oğlu Sultan Vələd isə Anadoluda dünyaya gəlmişdi. Ümumiyyətlə, elmdə belə bir fikir hakimdir ki, o dövrdə oğuz şivələri bir – birindən indiki qədər çox fərqlənmirdi və bu fərqlər o qədər cüzi idi ki, həmin dövrdə vahid oğuz türkcəsindən danışmaq və həmin abidələri ümumoğuz abidələri hesab etmək daha doğrudur. Bununla belə, Azərbaycan ədəbiyyatşünaslığında Əlinin "Qisseyi – Yusif"inin ümumoğuz abidəsi olmaqla yanaşı, sırf Azərbaycan ədəbiyyatının olayı olduğu barədə fikir var. İlk dəfə Həmid Araslı müxtəlif əlyazma nüsxələri Bakı, Kazan, Berlin, Drezden və Sankt-Peterburqda qorunan bu əsərin Azərbaycan türkcəsində yazılmış "ən qədim mənzum əsər" adlandırmışdır: "Azərbaycanlı Əlinin yazdığı "Qisseyi- Yusif" uzun müddət tatar mədrəsələrində, məktəblərində dərslik olaraq oxunduğundan, tatar ədəbiyyatının inkişafına qüvvətli təsir göstərmişdir. Lakin hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatının məhsulu olduğu üçün Azərbaycan ədəbiyyatının və ədəbi dil tarixinin öyrənilməsi işində böyük tarixi, elmi əhəmiyyətə malikdir" (Əlizadə Əsgərli, 2019, s. 5).

Fuad Köprülü Şərqi Anadoluda yaranmış bir çox oğuzdilli əsərlərlə yanaşı Şəyyad Həmzənin "Yusif və Züleyxa"sını da Azərbaycan türkcəsi və Azərbaycan ədəbiyyatı nümunəsi hesab etmiş və bildirmişdir ki, "… Şərqi Anadolunun ədəbi dili, bu sahələr Osmanlı dövləti tərəfindən fəth edilincəyə qədər Azəri ləhcəsi idi. Və indiyə qədər də həmin ərazidə Azərbaycan dili şivələri işlənir. Qazi Bürhanəddinin "Divan"ı, "Dastani-Əhməd hərami", Yusif Məddahın "Vərqa və Gülşa"sı, Suli Fəqihin "Yusif və Züleyxa"sı, Qazi Mustafa Zərrinin "Yusif və Züleyxa"sı, Şəyyad Həmzənin "Yusif və Züleyxa"sı, Şərqi Anadoluda meydana çıxmışdır" (Fuad Köprülü, 1966, 126).

Alimin adını çəkdiyi əsərlərin böyük əksəriyyəti Səlcuqlular dövründə deyil, Hülakülər, başqa sözlə, Elxanilər dövründə ərsəyə gəlmişdir. Bundan öncə, daha dəqiq desək, artıq XII əsrdə tədqiqatçılarımızın diqqətindən kənarda qalmış alban ədəbiyyatı da inkişafda olub. Söhbət albanların islamı qəbul etməyən, özlərini Azərbaycanın müsəlman – oğuz kütləsindən ayrı tutan və Azərbaycanı əski ənənəyə uyğun olaraq, hələ də "Albaniya" və ya "Bizim Şərq ölkəsi" adlandırmaqda davam edən xristian albanların ana dillərində, yəni alban (qıpçaq – qarqar) türkcəsində (Bəxtiyar Tuncay, 2010, s. 11-58) yaradıqları əsərlərdən, daha dəqiq desək, XII əsrin böyük alban ilahiyyatçı, tarixçi və müəfəkkiri Mxitar Qoşun "Törə bitiqi" və digər əsərlərindən gedir. Nəsr formasında yazılmış bu əsərlər Azərbaycanda yarandığı üçün, şübhəsiz ki, Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsidir.

Mxitar Qoşun "Törə bitiki"nin alban (qarqar – qıpçaq) dilində üç əlyazma variantı məlumdur ki, onlardan biri hazırda Polşanın Vrotslav şəhərində, Ossolinskilər adına Milli İnstitutun kitabxanasında (1916/II № – li əlyazma), digəri Avstriyada, Vyanadakı erməni mxitaristlərinin mərkəzində (468 № – li əlyazma), üçüncüsü isə Fransada, Paris Milli kitabxanasında (Arm. 176) qorunmaqdadır. Əsər dövrümüzədək bir çox əlavələrlə gəlib çıxmışdır. Bu da təbiidir, çünki müəllif hələ sağlığında kitabı, ondan sonrakıların da əlavələr etmələrinə və qanunlar toplusu-

nu daha da təkmilləşdirə bilmələrinə şərait yaradacaq bir tərzdə qələmə aldığını söyləmişdir. Bu barədə müəllif özünün Venesiya şəhərindəki San-Lassaro mxitaristlərinin monastırında saxlanılmaqda olan (1237 №-li əlyazma) "Alban salnaməsi" əsərinin əlyazmasında xəbər verməkdədir (Bəxtiyar Tuncay, 2010, s 78-146).

Hülakülər dövründə türk dilində yazıb yaratmaq ənənəsi tədricən ərəb və fars dilində yazıb yaratmaq ənənəsini kölgədə qoymağa başladı, türk dili dövlət dili səviyyəsinə qaldırıldı.

Azərbaycanı öz böyük imperatorluqlarının mərkəzinə çevirən və faktiki olaraq, əhatə etdiyi bütün ərazilərdə, o cümlədən Azərbaycan və Anadoluda sözün əsl mənasında Türk Renessansının əsasını qoyan Hülakülərin tarix səhnəsinə çıxması ilə təkcə Türk ədəbiyyatı deyil (Nizami Xudiyev, 2012, s. 172-173), Türk elmi və mədəniyyəti də renessans mərhələsinə daxil olmuşdu. Təsadüfi deyil ki, məhz onların dövründə Marağada dövrün ən böyük rəsədxana, kitabxana, universitet və akademiyası (Şərqdə astranomiya.., 2013), Təbrizdə Tibb Akademiyası və Universitet (Ziyadxan Nəbibəyli, 2017) qurulmuş, İbn Mühənnənın "Tərcümani Farsi və Türki və Moğuli" əsəri kimi cahanşümul lüğət, Fəzlullah Rəşidəddinin "Cəmi ət-təvarix" (Fəzlullah Rəşidəddin, 2000) kimi misilsiz tarix əsəri, dövrün təkmil astronomik cədvəli, göyün qlobusu və yerin ilk coğrafi qlobusu tərtib edilmişdir. Dünyaca məşhur türk miniatür sənətinin yaranması da həmin dövrə təsadüf edir. Əruzun türk şerinə və ərəb ladlarının milli musiqimizə yol tapması və nəticədə muğam sənətimizin hazırki təkmil şəklini alması da məhz Hülakülər dövründə baş vermişdir. Bu gün adlarını böyük qürur hissi ilə çəkdiyimiz Səfiəddin Urmiyalı və Əbdülqadir Marağalı kimi böyük bəstəkar və musiqişünaslar da məhz Hülakülər dövründə yaşayıb yaratmışlar (Üzeyir Hacıbəyov, 1950, s. 14).

Bütün bu deyilənlərlə yanaşı, Həmdullah Qəzvininin coğrafiya sahəsində yazdığı "Nüzhət ül-qülub" əsərini də qeyd etmək lazımdır. O dövrdə Azərbaycan renessansının ən böyük və parlaq nümayəndəsi isə, təbii ki, İmadəddin Nəsimi idi.

Hülakülər dövründə Azərbaycan ədəbiyyatının alban qolu da özünün çiçəklənmə dövrünü yaşamışdır. Həmin dövrdə yaradılmış əsərlər içərisində alban katalikosu Nersesin 1126 № – Venesiya əlyazmasında yer alan "Alğış Tenqrigə, Nersess gatoğiqosnunq aytkanı, xaysı ki tiyişlidir barça krisdanlarğa övrənməgə" başlıqlı əsərini göstərmək olar. Bu əsər 1618-ci ildə Lvovda çap olunan və hazırda yeganə nüsxəsi Leydendə (Niderlanda) qorunan "Alğış bitiki" kitabına da daxil edilmişdir.

Mxitar Qoşun şagirdi, Xlll əsrin böyük alban ilahiyyatçısı vardapet Vanağan (Vanakan Vardapet) haqqında Kirakos Gəncəli öz kitabının 43, 50, 51, 52 və 53 – cü fəsillərində geniş məlumat verməkdədir. Onun yazdığına görə, dövrünün böyük xristian ilahiyyatçılarından olan bu şəxs Mxitar Qoşdan dərs almış, vardapetlik həssaslığını da ondan qəbul etmişdi.

Kirakosun sözlərinə görə, üç üqnuma inamla, başqa sözlə, xristian inancının əsasları barədə romalılarla ermənilər arasında mübahisə yaranmış və problemi həll etmək iqtidarında olmayan ermənilər albanların ən müdrik ilahiyyatçılarına, o cümlədən Vanağana müraciət etmişdilər. O da düşündükdən sonra bu barədə fikir-

lərini "İnam bilə tapunurmen ari Errortutiunnu da bir Tenqrilikni ayırılmağan" (İmanın əsası: İnam ilə tapınıram nüqəddəs üç üqnuma və tək Tanrıya ayırmadan) adlı əsərində dilə gətirmişdi. Həmin fikirlər iki müxtəlif variantda dövrümüzədək ulaşmışdır. Onlardan biri 1750 №-li Venesiya əlyazmasında qeyd edilib.

Dövrümüzədək Vardapet Vanağanın daha bir neçə cümləsi də gəlib çatmışdır. Həmin yazı Matenadaranda (İrəvan) qorunan 2267 №-li əlyazmada yer almaqdadır.

Alban və Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Kirakos Gəncəli 1201-ci ildə Gəncədə anadan olub. Erməni mənbələrində bəzən "Kirakos Qandzakasi", bəzən alban olması səbəbindən "Şərqli" (Aravelsi), bəzən Nor – Getik monastrında yaşamasından dolayı "Gedikli" (Qetesi), bəzən də sadəcə "vardapet Kirakos" adlandırılan, türkdilli alban mənbələrində isə adı yalnız vartabed Giraqos kimi çəkilən Kirakos Gəncəli 1272-ci ildə vəfat etmişdir. Mxitar Qoşun şagirdi Vanağanın şagirdi olan bu şəxs özündən sonra çox zəngin bir irs qoymuşdur. Fəqət onların çoxu dövrümüzədək orijinalının dilində deyil, xarici dillərə tərcümədə gəlib çatmışdır. Əldə olan yeganə tamhəcmli orijinal, yəni anadilli əsəri özünün tərtib etdiyi dini məzmunlu "Xosdovanitiun" (Tövbə duası) əsəridir.

Kirakosun özünün yazdığına görə, o, müəllimi Vanağan və Vanağanın digər şagirdləri ilə birlikdə tatarlara əsir düşmüş və əsir olduğu dövrdə, əsirlikdən qaçana qədər tatar bəylərindən birinin mirzəsi və katibi olmuşdur.

Kirakosun "Tövbə duası" əsəri Polşadakı Milli Muzeyin kitabxanasının Krakov şöbəsində qorunan 2412 №-li əlyazmadan dərlənmişdir. Eyni əsər Vyanadakı Mxitaristlər İttifaqında qorunan 143 №-li və 545 №-li, eləcə də Vensiyada saxlanılan 1126 №-li əlyazmalarında da yer almaqdadır. Venesiya variantında eyni mətn "Ögüt Giraqos vartabedninq" başlığı altında keçir.

Gəncəli vardapet Kirakosun "Tarix" əsərinin əsli Matedaranda saxlanılır. Bu irihəcmli kitab haqqındakı təsəvvürlərimiz ermənilərin rus dilinə tərcümə edərək, müxtəlif, əlavə, ixtisar və təhriflərlə nəşr etdirdikləri, bəzən "Ermənistan tarixi", bəzənsə "Ermənistanın şərq əyaləti – Alban ölkəsinin tarixi" kimi qondarma adlarla təqdim etdikləri kitablara əsaslanır. Kitabın gerçək adı isə "Alban ölkəsinin qısa tarixi"dir və orada bir çox xalqın – albanların, ermənilərin, rumluların, ərəblərin, tatarların və gürcülərin əsasən XIII əsr tarixindən, başqa sözlə, tatarların hakimiyyəti dövründən bəhs edilir. Sözügedən kitabın II fəslinin böyük bir hissəsinə alban (qıpçaq – qarqar) dilində 1750 №-li Venesiya əlyazmasında rastlanması faktı verir (Bəxtiyar Tuncay, 2010, s. 162-170).

Elmi ədəbiyyata adları siyasi məqsədlərlə "monqol" və ya "monqol-tatar" kimi daxil edilən və "vəhşi köçərilər" kimi təqdim edilən tatarların XIII əsrdə bütün Avrasiyaya hakim olması ilə təkcə Azərbaycan və Anadoluda deyil, bütün Avrasiya məkanında elm, incəsənət, mədəniyyət və ədəbiyyatın inkişafında inanılmaz bir yüksəlişə başladığını söyləmək üçün əldə kifayət qədər əsas vardır. Belə ki, həmin dövrdə Türk dünyasındakı etnik, siyasi və sosial canlanma və inkişafa paralel olaraq, başda Altın Ordanın paytaxtı olan Saray şəhəri olmaqla çeşidli şəhərlərdə yeni mədəniyyət mərkəzləri formalaşmağa başladı (Ahmet Bican, 2010,

s. 369; GüldenYüksekkaya, 2016). Qərbi Anadoluda qurulan türkmən bəyliklərinin Anadoluda oluşdurduqları münbit şərait və türkcəyə qarşı göstərdikləri həssasiyət sayəsində Türk dili Anadoluda bir dövlət dili, bir rəsmi dil halına gəldi (Hamit Kemal, 2007, s. 25).

XIV əsrin başında Anadoluda Kırşehrdə yaşayan Gülşəhrinin o günə qədər bənzəri görülməmiş bir ustalıq sərgiləyərək, 1317-ci ildə tamamladığı tərcümə əsəri dövrün türkcə yazılmış ən gözəl əsərlərindən birinə çevrilmişdir. Söhbət Fəridüddin Əttarın farsca qələmə aldığı "Məntiq üt-Tayr" əsərinin tərcüməsindən gedir. Bu tərcümə əsəri Anadoluda türkcə qələmə alınmış ən əski məsnəvidir (Hamit Kemal, 2007, s. 26-27). Bu sırada Kırşehirli Aşıq Paşanın Mövlananın "Məsnəvi"sindən ilham alaraq yazdığı, 1330-cu il tarixli "Qəribnamə" adlı məsnəvisini də qeyd etmək lazımdır. Həmin əsər Anadoluda Türk təsəvvüf ədəbiyyatının təsirli əsərlərindən hesab edilir. Bundan başqa Şəyyad Həmzənin "Yusif və Züleyxa" poeması da eyni özəlliklərə sahibdir. Əlbəttə ki, təsəvvüf ədəbiyyatının ən görkəmli simalarından biri olan Yunus İmrənin adı da unudulmamalıdır (Mustafa Tatcı, 2014).

Maraqlıdır ki, sözügedən dövrlərdə alban (qarqar-qıpçaq) türkcəsi Azərbaycanda olduğu kimi, Anadoluda da işlənmiş və Kilikiyanın xristian alban əhalisi bu dildə bir çox əsər yaratmışlar. Bunlardan Lambronlu Nerses, Qriqor Maqistratos, Katalikos IV Nerses, Naraekli Qriqor, Ərzincanlı Ohannes, Yovhanes Tılkuranlı, Arakel Bitlisli, Nerses Şnorali, Toros Muşlu, Mkırtıç Nəqqaş, Xaçatur Dərəçiçəkli, Frik, və Zəkəriyyə Vanlı və başqalarının adını çəkmək lazımdır (Şahlar Hacıyev, Bəxtiyar Tuncay, 2020, s. 85-122).

XIV əsrin başında Anadoluda oğuz türkcəsində yazılan əsərlər içərisində Gülşəhrinin, Aşıq Paşanın məsnəviləri, eləcə də Şəyyad Həmzənin "Yusif və Züleyxa" poeması xüsusi önəm daşımaqdadırlar. Bu sırada Yunus İmrənin adını da xüsusi çəkmək lazımdır (Mustafa Tatcı, 2014).

ƏDƏBİYYAT

1. Ahmet Bican Ercilasun, Başlangıçtan Günümüze Türk Dili Tarihi, Akçağ Yayınları, Ankara 2010.

2. Azər Turan. Ədəbiyyatşünaslıqdan milli ideologiyaya // Ədəbiyyat qəzeti.- 2018. 9 noyabr.

3. Bəxtiyar Tuncay. Qafqaz albanlarının dili və ədəbiyyatı. Bakı: Qanun Nəşriyyatı, 2010, 368 s

4. Əlizadə Əsgərli. Həmid Araslı və türk-müsəlman xalqları ədəbiyyatı // Respublika. 2019. 21 aprel. № 86.

5. Fəzlullah Rəşidəddin. Elxanilər dövləti və hüquqi məsələlərə aid ilk qaynaq. Tərcümə, ön söz və şərhlər Mirafərin Seyidovundur. Bakı, 2000.

6. Fuad Köprülü. Edebiyat arastırmaları, Ankara, 1966.

7. GüldenYüksekkaya. Harazm Türkçesi ve Harezm Türkçesi ile Yazılan Eserlr // Türkoloji Makaleleri. 31 Mart 2016 tarihinde Wayback Machine sitesinde arşivlendi.

8. Hamit Kemal, Liseler İçin Türk Edebiyatı Tarihi, A Yayınları, Ankara 2007.

9. Kamil Vəli. Oğuznamələr, tərtibçilər və ön sözün müəllifləri: K.Vəli, F. Uğurlu, Bakı Universiteti nəşriyyatı, 1993.

10. Kamil Vəli. Rəşidəddin F. Oğuznamə. Azərnəşr, Bakı,1992.

11. Leyla Karahan. Anadoluda Türk Yazı Dilinin Gelişimi // Türkoloji Makaleleri. Arxivləşdirilib 2016-03-31 at the Wayback Machine.

12. Mustafa Tatcı. Divan-i Yunus Emre. Kültür ve Turizm Bakanlığı, E-Kitap. Erişim tarihi: 11 Ocak 2014.

13. Nizami Xudiyev Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2012, 686 s

14. Paşa Kərimov. Nizami ənənələrinin anadilli davamçısı // ArtKaspi.az, 26 Yanvar 2021.

15. Şərqdə astranomiya elminin inkişafında böyük rol oynamış Marağa rəsədxanası. 2014-04-28 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2013-12-12.

16. Üzeyir Hacıbəyov. «Azərbaycan xalq musiqisinin əsasları». Bakı, 1950.

17. Ziyadxan Nəbibəyli. Qazan xan - elmə dəyər verən hökmdarımız... // Azərbaycan, 18. 10. 2017.